**Azərbaycan Respublikası Prezidentinin "Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, idxalının və satışının tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 1999-cu il 5 fevral tarixli 90 nömrəli, "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 2008-ci il 11 noyabr tarixli 12 nömrəli fərmanlarında, 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də, 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də, 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nda və 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı ilə təsdiq edilmiş "www.azexport.az" internet portalı haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, idxalının və satışının tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 5 fevral tarixli 90 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 2, maddə 74; 2001, 10, maddə 640; 2002, 8, maddə 487; 2003, 10, maddələr 571, 585; 2007, 2, maddə 100; 2008, 9, maddə 798; 2009, 4, maddə 226, 7, maddə 537; 2014, 5, maddə 477; 2016, 8, maddə 1384; 2016, 11, maddə 1797) 1-ci hissəsinin ikinci cümləsində "Kənd Təsərrüfatı Nazirliyinə" sözləri "Qida Təhlükəsizliyi Agentliyinə" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 11, maddə 968; 2009, 2, maddə 68; 2017, 8, maddə 1521; 2018, 5, maddə 905) 3-cü hissəsinə "(şəhadətnamələrinin)" sözündən sonra ", qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatının, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 6, maddə 540; 2013, 12, maddə 1552; 2014, 1, maddə 14; 2015, 6, maddə 699; 2016, 9, maddə 1487, 10, maddə 1626; 2017, 12 (I kitab), maddə 2333; 2018, 7 (I kitab), maddə 1487) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 4.1.5-ci yarımbəndinə "(şəhadətnamələrini)" sözündən sonra ", qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatını, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışı" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 2, maddə 118; 2016, 5, maddə 862, 8, maddələr 1373, 1384; 2017, 1, maddə 46, 7, maddə 1345, 12 (I kitab), maddə 2340; 2018, 10, maddə 2010, 11, maddə 2287, 12 (I kitab), maddə 2603; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 645 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.47-ci yarımbəndi ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 5, maddə 881; 2018, 12 (I kitab), maddə 2583) ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın 1.5.3-cü, 3.4.2-ci yarımbəndlərinə və 5.6-cı bəndinə ismin müvafiq hallarında "(şəhadətnamələr)" sözündən sonra ismin müvafiq hallarında ", qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatı, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarış" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 9, maddə 1645) ilə təsdiq edilmiş "www.azexport.az" internet portalı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.2.1. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən:

1. ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala baytarlıq sertifikatının verilməsi;
2. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi;
3. xarici ölkələrə ixrac edilən qida məhsullarına qida təhlükəsizliyi sertifikatının verilməsi;".

6.2. 4.2.2-ci yarımbəndin birinci abzası ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2019-cu il
739